# YAZIÇI HƏSSASLIĞI VƏ SÖZÜN GÜCÜ

Uşaq dünyası çox zəngindir, hətta o qədər zəngindir ki, bu aləmin kəşf olunmamış, görünməyən tərəfləri gördüyümüzdən və bildiyimizdən dəfələrlə çoxdur. Uşaqları müşahidə etmiş, öyrənmiş psixoloqlar, yazıçılar, hətta həkimlər belə, uşaq aləmini axıra qədər öyrənməkdə acizdirlər. Hər halda yazıçılar uşaq aləminin mənəvi tərəflərini müəyyən qədər öyrənməyə müvəffəq olurlar. Görünür, hansı yazıçı daha çox uşaq mənəvi mühitinə yaxınlaşa bilirsə, elə o da həmin həssaslıqla uşaq mühitini yazıya gətirə bilir.

Şəfəq Nasirin uşaq dünyasından bəhs edən hekayələrini oxuduqca bir daha inanırsan ki, o, uşaq aləminin dərinliklərinə vara bilir. Ona görə də uşaqlar haqqında - uşaq həyatından, uşaq düşüncəsindən bəhs edərkən özünü təkrarlamır. Biz hər dəfə onun uşaq şirinliyi ilə yazıya gətirdiyi balaca qəhrəmanların təkrarsız, bənzərsiz tərəflərini görürük.

"Rəngbərəng muncuqlar" hekayəsində bir ailənin mühitindəki uşaqlar diqqət mərkəzinə çəkilir. Bu hekayədə balaca İlhamın ad günündə baş verən əhvalat təsvir olunur; daha doğrusu, ailənin lap kiçik qızı 4 yaşlı Firuzənin danışığı, hərəkətləri, adamlara münasibəti hekayənin məzmununu təşkil edir. İlham və Ülviyyə bir qədər Firuzədən böyükdür. Hər halda bu böyüklük onlara imkan verir ki, öz hərəkətlərinə nəzarət etsinlər, qonaqların söhbətlərinə müdaxilə etməsinlər, nə iləsə bir kimsənin diqqətini məclisdən yayındırmasınlar. Amma Firuzə daha çox sərbəstdir. Və hərəkətlərində də uşaq səmimiyyətinin tələblərinə uyğun məntiqi var. Məclisi müşahidə edən Firuzənin diqqətini boynunda rəngbərəng muncuqları olan bir xanım cəlb edir. Onun danışığı və mehribanlığına o qədər valeh olur ki, kimsəyə sezdirmədən stolun altı ilə adamların ayaqları arasından keçib həmin xanımın dizinin üstünə qalxır. Qadın Firuzəni qucağına alır, dizinin üstündə oturdur. Firuzənin anası təkid etsə də, geri qayıtmır, düşmür. Həmin qadın da mehribanlıqla ona nəvaziş göstərir. Firuzə əlini uzadıb qadının boynundakı muncuqları oynadır. Muncuqlardan xoşu gəldiyini deyir, onların rənglərini bir-bir nəzərdən keçirir. Və bu zaman biz Şəfəqin rəng həssaslığını da duyuruq. Müəllifin yazı dilində muncuqların al-əlvan rəngləri elə təsvir olunur ki, oxucu sanki həmin cazibədar rənglərin aləminə düşür. Bu rənglərin sayəsində müəllif öz oxucusunu sanki məclisin iştirakçısına çevirir. Uşaq muncuqlu qadının adını soruşur. Və biləndə ki, adı Səmadır onda Firuzə dilinin şirinliyi ilə həmin qadının adının da gözəl olduğunu bildirir. Nəhayət, Səma öz muncuğunu Firuzənin boynundan asır. Firuzə boynundakı muncuqla birgə digər uşaqların yanına getmək istəyir. Ancaq tez də geriyə qayıdır. Muncuları sahibinə qaytarır.

Oxucu düşünə bilər ki, Firuzənin diqqətini munncuqlar cəlb etdiyinə görə Səmaya belə isti yanaşır, hətta onun adını da təqdir edir. Amma tezliklə məlum olur ki, Firuzəyə muncuq da lazım deyil, adda lazım deyil. Həmin xalanın özünü istəyir, istəyir ki o qadın həmişə onun yanında olsun.

Deməli, uşaq nə zahiri əlamətləri, nə muncuqları... təqdir etmir. Uşağı cəlb edən həmin qadının mehriban münasibətidir, isti, qayğılı yanaşmasıdır.

Müəllif uşaq aləminin daha bir sirrini açmaqla uşaq böyüdən valideynlərə baxça işçilərinə, müəllimlərə, hətta uşağın digər doğmalarına xəbərdarlıq edir ki, uşağa qarşı gərək yüksək həssaslıq göstərilsin. Uşaq bircə anlığa da olsa, diqqətini ondan yayındıran doğmasını bağışlamır. Uşağın bizim kiçik hesab etdiyimiz böyük dünyasında belə diqqətsizlik xüsusi iz buraxır. Əslində bu hekayəni tam ciddiyyəti ilə hər kəs üçün yazılmış yazıçı məktubu da hesab etmək olar. Özü də ciddi xəbərdarlıq məktubu.

"Səadətin arzusu" hekayəsində müəllif bir uşağın - məktəblinin kiçik ürəyində özünə yer eləmiş böyük dərdindən söhbət açır. Müəllif hekayənin əvvəlindəcə uşağın görünüşünü elə dəqiq cizgilərlə təsvir edir ki, oxucu mütləq onun mənəvi dünyasındakı bilinməzlikləri bilmək istəyir. Bəri başdan müəllifin üstüörtülü təqdimatına diqqət edək: "Qapı yavaşca cırıldadı. Səadət başı aşağı, çəkinə-çəkinə içəri girdi. Uşaq qəlbinin həyəcanını cilovlayırmış kimi çantasını bərk-bərk qucağına sıxıb müəllimin icazəsini gözlədi. Sinifdəkilər pıqqıldaşdılar. Xalisə müəllim ona tərəf çevrildi.

-Bu nədir, sən yenə də gecikmisən? axı söz vermişdin ki, vaxtında gələcəksən?

Qız başını qaldırdı.

-Müəllim, bağışlayın, daha gecikməyəcəm.

Onun iri, ala gözləri buludlanmışdı, bunu Xalisə müəllim aydınca gördü.

-Hər gün bu sözü deyirsən. Keç əyləş, axırıncı dəfə olsun.

Səadət başını qaldırmayıb hürkək addımlarla yerinə keçdi. Həmişə olduğu kimi bu gün də onun qollarının, boyunun ağ haşiyələri, döşlüyü çirkli və ütüsüz idi. Saçları isə hörükdə bənd almayıb alnına, boyun-boğazına dağılmışdı..." Bu, qəsəbəyə təzə köçmüş bir ailənin övladı Səadətin yalnız özünə məlum olan macərasının başlanğıcıdır. Müəllif bu hekayədə müəllim və uşaq münasibətini əsas götürür. Gərək müəllim o qədər diqqətli, həssas olsun ki, şagirdinin kimsəyə məlum olmayan, sanki qaranlıqda olan düşüncələrinin dərinliyinə daxil ola bilsin. İlkin müşahidələrə görə Səadət zehini, düşüncəli uşaqdır. Tezliklə məlum olur ki, o, bu ərəfəyədək yaxşı oxuyub, bəs indi səbəb nədir ki, o, get-gedə geriləməyə başlayıb.

4-cü sinif şagirdi Səadəti yaxşı tanımaq üçün müəllif oxucusunu çox intizarda saxlamır. Müəllimin "mən kim olmaq istəyirəm?" mövzusunda tapşırdığı inşa yazı hər kəsə hər şeyi məlum edir. Səadətin yazdığı inşadan məlum olur ki, onun anası uzun müddətdir ki, yataq xəstəsidir. Səadət uşaqların böyüyü olduğundan az qala ailənin ev qayğıları tamam onun boynuna düşür. Xəstə anasına da baxır, qardaşlarına da qayğı göstərir, hətta işdən yorğun gələn atasını da unutmur. Bütün bunları Səadət uşaq dünyasının təlqini ilə özünün inşasında səmimiyyətlə yazır. Nəhayət, yazısının sonunda öz arzusunu və bu arzuya yol açan səbəbi göstərir: "Mən həkim olmaq istəyirəm ki, heç bir uşağın anasını xəstələnməyə qoymayım. Qoy, onlar mənim çəkdiyim əziyyətləri çəkməsinlər. Əsl uşaqlıq çağlarını keçirsinlər. Hər şeyə vaxt çatdırsınlar. Əgər analar sağlam olsalar, uşaqların üzü həmişə gülər, onlar yaxşı böyüyərlər, dərslərini də yaxşı oxuyarlar.

Qəti qərara gəmişəm: həkim olacağam". Müəllim Səadətin inşasını uşaqlar üçün oxuyur. Səadətin inşası ona lağ edən şagird yoldaşlarını kifayət qədər utandırır. Bu, onların cəzası idi.

Şəfəq Nasir uşağa qayğı göstərməyin necə çətin olduğunu diqqətə çatdırmaqla bu hekayədə hər bir uşağa qayğı göstərməli olanların, xüsusilə, müəllimlərin məsuliyyətini diqqətə çəkir.

"Bir parça çörək" hekayəsi sülh dövrünün əhvalatı olsa da, müəllif onu ustalıqla faşizmin yırtıcılıqla başladığı müharibə zamanına apara bilir. Doğrudur, şərt o deyil ki, əsərdən top-tüfəng səsləri eşidilsin. Müəllifin ustalığı orasındadır ki, müharibənin olmadığı zamanda belə müharibə səbəbindən törənən faciəni diqqətə çatdıra bilir. Uşaqlar axşamdan qalmış çörəyi yemək istəmirlər, bu zaman ata müharibə dövründə keçmiş uşaqlığının bir xatirəsini danışır. Xatirədən kiçik bir parça ilə müharibə faciəsinin ən ucqarlara qədər uzanan caynaqlarını da görmək, təsəvvür etmək olar: "Anam hönkürdü. Bu hönkürtünün içərisindən onun qırıqqırıq dediyi sözlərini eşidirdim.

-Darıxma, oğlum, Allah faşistlərin bəlasını versin. Qəm çəkmə, tezliklə müharibə qurtaraq, atan da cəbhədən qayıdar. Onda çörək də bol olar. Sən də istədiyin qədər yeyərsən...

Müharibə qurtardı, atam isə qayıtmadı. Bir gün anam bərk xəstələndi. Bir səhər gözlərini əbədi qapadı. İllər ötdü, biz böyüdük. Aclıq arxada qaldı, əlimiz çörəyə çatdı. Lakin hər dəfə bu bərəkətli neməti əlimə alanda uşaq qəlbi ilə həsrətini çəkdiyim o bir parça qara çörəyin ətrini, ləzzətini duyuram, onu unuda bilmirəm..." Kiçik bir hekayənin içərisində ağır təəsürat yaradan epizod uşaqların yaddaşında dərin bir iz buraxır. İşğalçılara nifrət, öz ölkəsini, torpağını qorumaq hissi hekayənin aşıladığı təəssürat altında uşaqların yaddaşına yazılır. Müəllif bu hekayə ilə müharibənin yaratdığı dəhşətin miqyasını sanki zəmanəmizə qədər gətirir. Və biz, eləcə də uşaqlar asanlıqla Qarabağ savaşını da təsəvvürlərinə gətirə bilirlər. Erməni vandallarının, erməni faşistlərinin kim olduqlarını da tam təsəvvür edə bilirlər. zənnimcə müəllif məqsədinə nail olub. Bu məqsəd düşmənə qarşı nifrət və savaş əzmi, Vətənə sevgi və sədaqət hissləridir.

"Bir parça çörək" hekayəsi öz oxucusuna deyir ki, çörək üçün torpağı qorumaq birinci şərtdir.

"Bir cam un" çox maraqlı hekayədir. Bu hekayəni oxuyan hər kəs sarsılmaya bilməz. Bu hekayədə də top, tüfəng səsi eşidilmir, amma müharibənin yaratdığı faciənə mühitin bir ailənin timsalında, bir uşağın taleyində çox acınacaqlı mənzərəsini görürük. Ata müharibəyə gedib. Onun arvadı Gülcəmala yazdığı məktubdan bir cümlə - "Gülü Misirlə Gülgəz amanatı" sözləri bütün hekayə boyu oxucunun düşüncələrini səfərbər edir. Sanki ağrılı bir dillə əsər boyu oxucuyla danışır. Gülcamal iki balasının qayğısını çəkməkdə acizdir. Bütün gücüylə çalışır, vuruşur, amma uşaqları yenə aclıq çəkir. Hətta iş o yerə çatır ki, Misir balaca camı götürüb qonşu kəndə gedir. Bir cam un toplamaq üçün özündən böyük uşaqlara, qabağına çıxan adamlara yalvarır. Bu uşaqlar onu məcbur edirlər ki, bir mahnı oxusun. Misir isə özünün uşaq dünyasından gələn kədərli dərdini mahnının sözlərinə qovuşdurur: "Hoy, hoy, çay papax;

Hoy, hoy, bay dodax,
Niyə soydu gül yanax...
-Al yetim bu da bir çimdik.

Misirin boğazı qovuşmuşdu. Amma yığdığı un bir ovuc olar-olmazdı. O da camın dibini güclə örtürdü. Uşaq şirin ləhcəylə bu misraları təkrar-təkrar oxuyanda, oğlanlar onun qabına bir çimdik un atırdılar.

Misirin körpəcə qəlbində ümidi bir boy artmışdı. Un dilənərək, evə gətirəcək, anası da onlara şirin, yağlı kökə bişirəcəkdi.

Amma qonşu kəndin bu daş ürəkli uşaqları da unu ona havayı vermək istəmirdilər. Misir zəif, kövrək səslə oxuyurdu.

Hoy, hoy, çay papax;
Hoy, hoy, bay dodax,
Niyə soydu gül yanax..."

Hansı oxucu bu yanıqlı mənzərənin qabağında dözüm gətirə bilər? Ürək gərək nə qədər daş olsun ki, bu acılara tab gətirə bilsin. Hələ bunlar azmış kimi uşaqlar bununla da kifayətlənmirlər, onu təhqir edəcək dərəcədə ələ salırlar. Bütün bunların hamısına dözən Misir bir cam unu toplayıb geriyə qayıdır. Yolda isə taqətdən kəsilir, acından yeriyə bilmir. Arxı tullananda yıxılır, o bir cam un da dağılır. Cam onun alnına dəyib alnını qanadır. Axır ki, camı sinəsinə sıxıb əliboş evə qayıdır. O gün anası Misiri də Gülgəzi də sevindirə bilir. Çünki məktəbdən uşaqlar üçün un payı verilib. Ana da həmin undan çörək bişirib. Uşaqların həmin anlarda keçirdiyi hissləri müəllifin yazıya gətirməsi müharibə cəlladları üçün bu gün də ittihamdır: "Bədəninin ağrı-acısını bircə anda unutdu Misir. Gözlərinin qabağına gətirdi ki, atası qayıdıb, yenə əvvəlki kimi yaxşıca yaşayırlar...

-Ye, gözümün işığı, indicə bişirmişəm.

-Unu hardan almısdın, ana?

-Nəbi müəllim göndərib. Uşaqların arasında bölüblər, bu da sənin payına düşüb.

Gülgəzlə Misir şirin-şirin yeməyə başladılar.

-Mən bilirəm, bizimkilər faşistləri qıracaq, atam da qayıdacaq.

-Elədi, başına dönüm.

Misir nə fikirləşdisə dedi:

-Ay ana, ta dünyada faşist qalmayacaq ki?

-Yox, qalmayacaq.

-Ana, qoy müharibə qurtarsın, atam da qayıdıb gəlsin. Amma sən o mis camı atma haa. Sonra yenə unnan doluboşalacaq.

-Yaxşı, qadan alım, atmaram.

Balaca Gülgəz isə dinib-danışmadan çörəkdən yeyə-yeyə anasıyla qardaşına baxırdı". Bu hekayənin canı, qanı yaddaş üstündə qurulub. Mis cam isə yaddaşın obrazıdır.

Şəfəq Nasirin uşaqlar üçün yazdığı hekayələri hər bir yaşda olan oxucu maraqla oxuyar. Və uzun müddət hadisələrin, obrazların aşıladığı təəssüratdan ayrıla bilməz.

Uşaq dünyasının çox dərinliklərdə olan incəlikləri bilmədən belə sənətkarlıqla, istedadla əsərlər yarana bilməz. Şəfəq Nasir uşaq aləmini yaxşı bilir.

*2020*